


# XXXI Rio-de-Janeyro Yay Olimpiya Oyunları




# Dördüncü gümüş medal....

## Valentin Demyanenko Riodan mükafatla qayıdır

Dünyanın böyük maraqla izlədiyi daha bir Olimpiya oyunları tarixin yaddaşına qovuşmaqdadır. Planetin ən güclü atletlərinin yarışdığı mötəbər turnirdə idmançılarımız qazandığı medallarla xalqımızı sevindirməkdə davam edirlər.

Fərəhlidir ki, buna kimi iştirak etdiyimiz son 5 Olimpiadada qazanılan medallar 5 idman növündə qeydə alınmışdırsa, bu dəfə say 7-yə yüksəlib. Bunlar güləş, atıcılıq, cüdo, boks, ağırlıqqaldırma, avarçəkmə (kayak və kanoe) və taekvondodur.

Avqustun 18-də idmançımız Valentin Demyanenko Azərbaycanın hesabına 4-cü gümüş medalı yazdırıb. O, birnəfərlik kanoe qayığı (C-1) ilə 200 metr məsafəyə final yürüşündə çinli Qianq Li, ispaniyalı Alfonso Benavides Lopes de Ayala, fransalı Tomas Simar, gürcüstanlı Zaza Nadiradze, braziliyalı İsakias Keyruş dos Santos, Azərbaycan yığmasının sabiq üzvü, hazırda Rusiyanı təmsil edən Andrey Kraytor və 2012-ci il London Yay Olimpiya Oyunlarının qalibi Yuri Çebana qarşı yarışıb. Finalda məsafəni 39.493 saniyəyə qət edən idmançımız gümüş medalla kifayətlənib.

V.Demyanenko finaldan sonra mətbuata verdiyi açıqlamasında inanılmaz dərəcədə xoşbəxt olduğunu bildirib: "Olimpiadada medal qazanmaq inanılmaz hisslər oyadır. Gərgin yürüş oldu. Rəqiblər çox güclü idi. Elə alındı ki, ikinci oldum. Olimpiadaya gələn hər bir idmançı qızıl medal arzulayır. 2-ci, 3-cü, 4-cü olmaq istəyən yoxdur. Hər kəs öz gücünü bilir və özünə inanır. Buradakılar da öz güclərinə inanan idmançılardır. Nəticə elə alındı ki, Azərbaycana Rioda 10-cu medalı qazandırdım. İlk növbədə, evə qayıdarkən atamın və anamın yanına gedib sevincimi onlarla bölüşmək istəyirəm".




Məlumat üçün qeyd edək ki, V.Demyanenko 1983-cü il 23 oktyabr tarixində Ukraynanın Çerkassk vilayətində doğulub. 2007-ci ildən Azərbaycanın idman şərəfini qoruyan təcrübəli atlet 2009-cu, 2011-ci və 2013-cü illərdə dünya çempionu adına sahib olub. Olimpiya oyunlarında ilk medalını qazanan təmsilçimiz eyni zamanda, 3 qat Avropa çempionudur. Dəfələrlə beynəlxalq turnirlərin iştirakçısı və qalibi olmuş Valentin Demyanenko Bakıda keçirilən I Avropa Oyunlarının bürünc mükafatını qazanıb.

Ötən il I Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*